# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №05 (7494) | 9 may 2021-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## HEYDƏR ƏLİYEV - 98

# DAHİ İNSAN, QÜDRƏTLİ ŞƏXSİYYƏT

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qədirbilən xalqımız tərəfindən layiqincə qeyd edilir. Respublikamızın hər yerində olduğu kiim, Şirvan şəhərində də bu əziz günə - 10 maya ciddi hazırlıq işləri görülmüşdür. Pandemiyanın tələblərinə uyğun olaraq şəhərimizin idarə və müəssisələrində, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında bir-birindən maraqlı tədbirlər həyata keçirilir. Ulu öndərin abidəsi önündə abadlıq, quruculuq, təmizlik işləri aparılmışdır. Abidə ətrafına gül-çiçəklər əkilmişdir. Nə qədər ki, Azərbaycan xalqı var ümummilli lider Heydər Əliyevin xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.**

Ulu öndərin siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil Azərbaycanımız gündən-günə çiçəklənir, inkişaf edir. Azərbaycan Respublikasıın Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurlarımız ildənilə artır. 2020-ci ilin sentyabrında Azərbaycan ordusu əks-hücümla işğal altında olan torpaqlarımızı azğın düşmən tapdağından azad etdi. Bu eyni zamanda ulu öndərin ən böyük arzusu idi. Ümummilli liderin və şəhidlərimizin rühü şad oldu.

Xalqımızın milli mənlik şüurunun oyanmasında, müstəqil dövlətçilik təfəkkürünün formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin hər bir məqamı Azərbaycan xalqının qürur və iftixar mənbəyidir. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərliyi dövründə milli maraqlarımızın qorunmasına, milli şüurun, müstəqil dövlətçilik təfəkkürünün formalaşıb möhkəmlənməsinə, ideoloji prinsiplərin, milli kadrların hazırlanmasına xüsusi önəm vermişdir. İstedadlı gənclərin keçmiş SSRİnin nüfuzlu ali məktəblərinə göndərilməsini təşkil edirdi.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə milli- mənəvi dəyərlərimizə, adət-ənənələrimizə diqqəti daha da artırıldı. Təhsilin, səhiyyənin maddi- texniki bazası, kadr potensialı milli kadrlarla gücləndirilidi. Ümummilli lider, Heydər Əliyevin rəhbərliyi ilə ölkədə iqtisadiyyatın bütün sahələri, o cümlədən kənd təsərrüfatı sürətlə inkişaf edir, əhalinn sosial prorblemləri ardıcıl həll olunurdu. Bu proses Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olan dövrdə də davam etdi.

Xalqın milli azadlıq, müstəqillik uğrunda mübarizə əzmini qırmaq üçün Sovet ordusu 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıya yeridildi. Bakıda tarixdə analoqu olmayan kütləvi qırğınlar törədildi. Bakıda fövqəladə vəziyyət elan olundu. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1990-cı ilin yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək 20 yanvar faciəsini törədən və ona rəvac verənlərin əməllərini qətiyyətlə pisləyib günahkarları ittiham etdi. Törədilən təcavüzə, faciəyə siyasi qiymət verdi. Onu dünya ictimaiyyətinə çatdırdı. Vəziyyətdən çıxış yollarını göstərdi. Ulu öndərin bu çıxışı Azərbaycan milli şüurun, ictimai fikrin inkişafında yeni mərhələnin əsasını qoydu. Xalqın gözünü açdı. Azərbaycan müstəqil dövlətçilik yoluna yönəldi.

Ümummilli lider Heydər Əliyev Naxçıvanda milli dövlətçiliyimizlə bağlı taleyüklü qərarlar qəbul etdi. 1990-ci ilin noyabrın 17-də ilk dəfə Naxçıvanda üç rəngli bayrağımız qaldırıldı. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi.

Xalqın təkidi, tələbi ilə müdrik siyasətçi, böyük dövlət xadimi ümummilli liderimiz Heydər Əliyev Bakıya dəvət edildi. 1993-cü ilin iyulun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. O ölkədə ictimai-siyasi sabitliyi təmin etdi. Atəşkəsə nail oldu. Dağıdılmış iqtisadiyyatı, beynəlxalq əlaqələri yenidən qurdu. Silsilə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısını aldı. Qeyri-qanuni silahlı dəstələri, hərbi birləşmələri ləğv etdi. Güclü milli ordu yaratdı. Ölkədə iqtisadi, siyasi islahatlar həyata keçirdi. Xarici kapitalın neft sənayesinə yönəldilməsini təmin etdi. «Əsrin müqaviləsi» neft kontraktlarının imzalanmasına nail oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılmasını təmin etdi. Qarabağ problemini sülh, danışıqlar yolu ilə həll etmək üçün fəal daxili və xarici siyasət yeritməyə başladı. Azərbaycanı müstəqil dövlət kimi bütün dünyaya tanıtdı.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycanda milli həmrəyliyə, milli birliyə nail olur. Birinci vitse prezidentimiz, Heydər Əliyev Fondunun Prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın humanizmə mərhəmət və nəcibliyə söykənən hərtərəfli fəaliyyəti ölkəmizdə sosial iqtisadi və mədəni inkişafın təmin olunmasına, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həllinə, elmin, təhsilin, səhiyyənin və idmanın infkişafına milli-mənəvi dəyərlərimizin təbliğinə və zənginləşməsinə hesablanmış mühüm layihələri müvəffəqiyyətlə həyata keçirməsi ölkəmizin tolerant, mültikultural həyat tərzini dünya ictimaiyyətinə çatdırması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirir, Heydər Əliyev siyasi kursuna yeni-yeni töhfələr verir.

Ümummilli lider Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan bu gün onun siyasi varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənir və inkişaf edir. Regionun söz sahibinə güclü dövlətinə çevrilir.

# Vətən müharibəsi qaziləri ilə növbəti görüş keçirildi

**Bu günlərdə Şirvan Şəhər İcra Hakimiyyətində daha bir qrup Vətən müharibəsi qazisi ilə görüş keçirilib. Görüşdə Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, millət vəkili İltizam Yusifov, Şirvan Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin direktoru İlham Mustafayev, ictimai təşkilat rəhbərləri və İcra Hakimiyyətinin məsul işçiləri iştirak edib.**




Vətənimizin bütövlüyü və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 44 günlük Vətən müharibəsində qazanılan Zəfər münasibətilə qaziləri bir daha təbrik edib və xidməti borclarını ləyaqətlə yerinə yetirdiklərinə görə təşəkkürünü bildirib. Hərbi Qənimətlər Parkının açılışında Dövlət başçısının müharibə iştirakçılarına müraciətindən "Siz dünya azərbaycanlılarının qürurunu qaldırdınız" sitatını diqqətə çatdıraraq, qələbənin əldə olunmasında xidməti olan bütün əsgər və zabitlərimizin dövlət başçısı tərəfindən yüksək qiymətləndirildiyini, onların böyük əksəriyyətinin orden və medallarla təltif edildiyini, sosial problemlərinin həlli istiqamətində qısa müddətdə bir çox sərəncamlar imzalandığını qeyd edib. Bildirib ki, "Yaşat" Fondunun və yerli icra hakimyyəti orqanlarının strukturlarında "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi"nin yaradılması, şöbə müdirinin və böyük məsləhətçinin də qazilərin arasından seçilməsi şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının ən bariz örnəyidir. Heydər Əliyev Fondunun dəstəyi ilə xüsusi əməliyyata və müalicəyə ehtiyacı olan yaralıların bir çoxunun dünyanın ən nüfuzlu tibb müəssisələrinə göndərildiyini vurğulayıb. Şirvan şəhərində də qazilərə və şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışaraq, qeyd edib ki, Şəhər İcra Hakimiyyətində yaradılmış işçi qrupları tərəfindən şəhid ailələri və qazilər mütəmadi ziyarət olunur, onların sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülür.

Vətən müharibəsində iştirak edərək sağlamlığını itirən qazilər onları narahat edən məsələləri şəhər rəhbərliyinin diqqətinə çatdırıblar. İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qazilərin problemlərinin bir qisminin tezliklə həll olunması üçün aidiyyəti üzrə göstəriş verib, digər mühüm məsələlərlə bağlı "Yaşat" fonduna müraciət edilməsinin vacibliyini bildirib.

Görüşdə iştirak edən qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını ifadə ediblər.

# Vətən müharibəsi Şəhidi Zülfiqarlı Zeynal Alim oğlunun xatirəsi anıldı




**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuzun erməni təxribatlarına və təcavüzünə layiqli cavab verən, Zəfər yürüşündə iştirak edib, torpaqlarımızı işğaldan azad edənlərdən biri də Zülfiqarlı Zeynal Alim oğlu olmuşdur.**

Zülfiqarlı Zeynal Alim oğlu 31.05.1995-ci ildə Sabirabad rayonunda anadan olmuşdur. O könüllü olaraq hərbi xidmətə getmiş, N saylı hərbi hissədə xidmət etmişdir. Zülfiqarlı Zeynal Alim oğlu erməni təcavüzünə qarşı döyüşlərdə fəal iştirak etmiş, işğal altında olan torpaqlarımızın azad edilməsində fədakarlıq nümunələri göstərmiş, şəhidlik zirvəzinə ucalmışdır. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun və YAP şəhər təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Zülfiqarlı Zeynal Alim oğlunun ailəsi ziyarət edildi. Ziyarət zamanı Vətən müharibəsi şəhidi Zülfiqarlı Zeynalın əziz xatirəsi yad olunmuş, ruhuna dualar edilmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevanın Vətən müharibəsi şəhidlərinin ailələri və qazilərlə keçirdiyi görüşlər, onlara dövlət səviyyəsində olunan diqqət və qayğı Şirvan şəhərində də davam etdirilir.

Şirvan Şəhər İcra Hakimiyyəti Vətən müharibəsi şəhidlərinin ailələri və qazilərlə görüşlərə xüsusi önəm verir, onların qaldırdıqları məsələlərə, müraciətlərə hassaslıqla yanaşır, maddi və mənəvi dəstək göstərir. Şəhidin atası Alim kişi və anası Şamama xanım Zülfiqarlı Zeynalın vətənpərvərlik ruhunda tərbiyə olunduğundan, hərbi xidmət zamanı göstərdiyi qəhrəmanlıqlardan danışdılar. Bildirdilər ki, Zeynal Cəbrayıl rayonu ərazisində gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib. Yaralı döyüş yoldaşlarının həyatını xilas edib. Özü də ən yüksək məqama-şəhidlik zirvəsinə yüksəlib. Onun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad edilməsinə görə", "Kəlbəcərin azad edilməsinə görə" və "İgidliyə görə" medallarına layiq görüldüyünü, Şirvanda, "Şəhidlər Xiyabanı"nda dəfn edildiyini, dəfn mərasimində Şirvan Şəhər İcra Hakimiyyəti rəhbərliyi və ictimaiyyət nümayəndələrinin yaxından iştirak etdiyini qeyd etdilər. Şirvan Şəhər İcra Hakimiyyəti tərəfindən "Şəhidlər Xiyabanı"nda aparılan abadlıq, yenidənqurma işlərinə, Vətən müharibəsi şəhidlərinin dəfn mərasimlərinin yüksək səviyyədə təşkilinə, qəbirüstü abidəsinin ucaldılmasına və digər abadlıq, quruculuq işlərinə, ailəyə göstərilən təşkilati, maddi və mənəvi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını və təşəkkürlərini bildirdilər.

*Allah Şəhidlərimizə rəhmət eləsin!*




## Vətən müharibəsi şəhidləri

# UCA ZİRVƏNİ FƏTH ETDİ

**Röyal haqqında söz acarkən, ilk müəllimlərindən olmuş, fəal ictimaiyyətci, Şirvan şəhərindəki Sadıq Hüseynov adına 1 nomrəli məktəb-liseyin direktoru, peşəkar pedaqoq Rəfiqə müəllim belə dedi; - Royal gozlərimiz qarşısında boyüyən bir oğul idi. Canından artıq sevdiyi Vətən torpağı ugrunda şəhid oldu.**

Bəli, 44 gün davam edən Vətən müharibəsində şanlı ordumuzun gostərdiyi şücaət, qəhrəmanlıq hər birimizi qürurlandırdı. Bu sevinci bizlərə yaşadan vətənin bütövlüyü ugrunda canı, qanı ilə tarix yazanlardan biri də Röyal Məmmədov idi. O, müharibəyə konüllü getmişdi. Silahdaşları kimi bir amalı vardı:

Ya qazi, ya da şəhid olmaq!

Məmmədov Röyal Misil oglu 1990 -çi il oktyabrın 12-də Şamaxının Kürdəmic kəndində sadə , zəhmətkeş ailədə dünyaya gəlib. Həmin ildən valideynləri ilə birgə Şirvan şəhərinə kocub. Royal 1996-çi ildə Şirvan şəhərindəki Sadıq Hüseynov adına I nomrəli məktəb- liseyin birinci sinfinə daxil olub.

Beşinci sinifdən isə təhsilini Şirvandakı 13 nömrəli tam orta məktəbdə doqquzuncu sinfə qədər davam etdirib. Şirvan Peşə Liseyinə qəbul olub, radio-mexanik peşəsinə yiyələnib

R. Məmmədov 2009-cu ildə həqiqi hərbi xidmətə cagırılıb və Füzulu rayonunda əsgəri borcunu yerinə yetirib.

Hərbi texnikaya marağı boyuk olan Royal əsgərlik illərində moto-atıcılıq kursunu bitirib. Motoatıcı kimi həmişə fərqlənib.

Royal hərbi xidmətini başa vurduqdan sonra müxtəlif sahələrdə calışıb. Ana itgisi ağır olsa da, Röyal ailə üzvlərinə dəstəkçi olub.

Atasının, qardaşları Tural və Elbrusun qaygısına qalıb.

Atası Misil Məmmədov ilə söhbət zamanı oyrənirik ki, Röyal Vətənin hər qarışı uğrunda döyüşə hər an hazır idi. Ona görə də könüllü olaraq 2020-çi ilin 28 sentyabrında cəbhəyə yola düşüb.

İlk döyüşlərə Füzulidən başlayan R. Məmmədov tarixi torpaqlarımızın erməni işğalından azad olunmasında fərqlənib. Sonra Zəngilan uğrunda gedən döyüşlərdə Röyal Məmmədov düşmənin xeyli canlı qüvvəsini məhv edib.

Röyal Misil oglu Məmmədov mübarizə yollarını Qubadlıda davam etdirib.Erməni qüvvələrinə öz yerini göstərən cəsur minamyotcu Röyal Məmmədovun son döyusləri də məhz elə Qubadlıda olub.

2020-çi ilin 24 oktyabrında düşmən ilə olüm-dirim savaşında o son ana qədər qəhrəmanlıqla döyüşərək şəhid olub.

Təəssüf ki, R.Məmmədov düşmənin ayaq izlərinin torpaqlarımızdan tam silinməsi sevincini yaşaya bilmədi. Oktyabrın 26-da yaşadığı ünvana şəhid kimi donən Röyal Məmmədov elə həmin gün boyük izdihamla Şirvanda Səhidlər xiyabanında ana torpaga əmanət edilib.

Röyal Məmmədovun ilk müəllimlərindən biri olmuş Şirvan şəhərindəki Sadıq Hüseynov adına I nomrəli məktəb- liseyin direktoru Rəfiqə Atayevanın dedikləri :

Royall tək məktəb- liseyin şagirdi deyil, həm də Şirvanın, bütün Azərbaycanın balasıdır.

Röyal Məmmədovun xatirəsini həmişə yad etmək bizim borcumuzdur. Royalın fəth etdiyi zirvəni hec nə ilə müqaisə etmək mümkün deyi.

Röyal indi tək Misil Məmmədovun oglu yox, bütün Azərbaycan xalqının ogludur. Sevinirəm ki, onun vətənpərvər oğul kimi yetişməsində biz müəllimlərin də rolu olub...

...Onun şəhid olması xəbərini eşidərkən olduqca kədərləndim. Təskinliyim o oldu ki, Röyal şəhidlik zirvəsinə ucalmışdı. Misil Məmmədovun həyətinə yüzlərlə şəhər sakini toplaşmişdı. Onun olümünə inana bilmirdik. Axı, şəhidlər ölməzdir. Məktəb- liseyin direktor müavini Elnur Novruzov söhbətinə davam edərək dedi :

-Royalı həm də bir məhəllənin sakini olaraq yaxşı tanıyırdım . Olduqca intizamlı , salamlı, mülayim xasiyyətli bir gənc idi. Ondan inciyən olduğuna inanmıram. Royal ailəsinin, elin, obanın xalqının etimadını əməlləri ilə dogrultdu. O cənnətdə ozünə əbədi yer tutdu.

**Haşiyə:**

Şəhidin ilk təhsil aldığı 1№-li məktəb-liseyin direktoru Rəfiqə müəllimin təşəbbüsü ilə bu günlərdə Röyal Misil oğlu Məmmədovun ailəsini ziyarət etdik. Ailənin qayğıları ilə maraqlandıq. Rəfiqə müəllim məktəb-liseydə Röyalın xatirəsinə həsr olunmuş yeni guşə yaradılacağını söylədi.

Elnur müəllim şəhidin atasına belə vətənpərvər oğul tərbiyə etdiyi üçün hər birimizin adından təşəkkürünü bildirdi.

Sonda şəhidin xatirə gecəsində xatirə şəkili çəkdirdik.

**Həmidə FAZİLQIZI**

# QALİB ORDUNUN MÜSƏLLƏH ƏSGƏRİ

**2020-ci ilin 10 noyabr tarixinin-Azərbaycan müstəqillik tarixinə əbədi həkk edilən o günün sevincini yaşamaq nəsib olmadı Əliyə. Lakin o yüksəkliklərdə ucalmaq istədiyi bayrağımızı, milyonların qəlbində dalğalandırdı.**

Mənəfli Əli Əflan oğlu 2001-ci ilin 12 oktyabr tarixində Şirvanda anadan olmuşdu. 2008-ci ildə Şirvan şəhər Mübariz İsrafilov adına 18 nömrəli məktəb-liseyin 1-ci sinfinə daxil olmuş doqquzuncu sinfi bitirdikdən sonra N.Quliyev adına Şirvan Peşə Liseyində təhsilini davam etdirmişdi. Əli həm də Şirvandakı yeddillik musiqi məktəbində «Simli alətlər» şöbəsində skripka ixtisası üzrə musiqi təhsili almışdı. Şirvan Gənclər Evi İSXM -inin fəallarından idi. Əli eləcə də Şirvan Olimpiya İdman Kompleksində güləşlə məşğul olurdu. O dəfələrlə region gəncləri arasında keçirilən turnirlərin qalibi olmuş, senrtifikatlar və mükafatlar qazanmışdı.



Atası onun musiqiçi kimi yetişməsini arzulasa da, Əli daha çox güləşə üstünlük verirdi. Əli 2019-cu ilin 5 oktyabrında hərbi xidmətə getmiş xidmətinə Beyləqan rayonundakı N saylı hərbi hissədə yerinə yetirməyə başlamışdı. Tapşırıqların öhdəsindən bacarıqla gələn Əli xidməti dövründə xüsusi təlim keçərək Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupuna üzv yazılmışdı.

Şəhidin atası Əflan Mənəfov bildirir ki, oğlu xidməti dövründə bir neçə dəfə əks kəşfiyyatda olub. Axırıncı kəşfiyyatından sonra Əli Mənəfliyə hərbi hissə komandiri tərəfindən «Boz qurd» fəxri adı almış və qol saatı hədiyyə edilib. Əlinin anası Simuzər xanım oğlu haqqında söhbət açdıqca öyrənirik ki, Əli Mənəfli ailəyə 9 illik övlad həsrətindçn sonra gəlib. Əli Mənəfli. 2020-ci ilin 27 sentyabrında silahdaşları ilə birilkdə hərbi hissədən azadlığın yollarına çıxıb. Onun döyüş yolları Füzulidən, Horadizdən, Cəbrayıldan, Qubadlıdan, eləcə də Zəngilandan keçib. Əli erməni silahlıları ilə bəzən əlbəyaxa vuruşub. Rəşadətli ordumuzun şücaətli əsgəri yüksək döyüş hazırlığı ilə bir çox rayon və kəndlərin işğaldan azad edilməsində mərdliklə iştirak edib.

Şəhidin bacısı Məryəm Mənəfli bildirir ki, o müharibənin odlu nöqtələrindən ondörd yaralı silahdaşını neytral zonadan çıxarıb.

Öyrənirik ki, Əli kəşfiyyat zamanı 8 erməni yaraqlısını məhv edib. Düşməndən qənimət götürdüyü 8 ədəd avtomat silah gətirərək komandanlığa təhvil verərkən o avatomatlardan birinin ona verilməsini xahiş edib. Məqsədi düşməni onun silahı ilə məhv etmək idi.

Əli Mənəfli həm də kəşfiyyatçı kimi mənfur erməni cəlladlarının bəd planlarını heçə endirənlərdən biri idi.

Vətən müharibəsində həm döyüşçü, həm də kəşfiyyatçı olan Əli Şuşa istiqamətində də düşmənə tutarlı cavab verib. Düşmənin neçə-neçə canlı qüvvəsini məhv edib. O həm də qənimət götrdüyü avtomat silahlardan biri ilə erməni faşistlərinə divan tutub. Əli Mənəfli 2020-ci ilin noyabr ayında Şuşa uğrunda gedən müharibədə ağır yaralanır. Sonra Bakı şəhərindəki hərbi hospitala yerəlşdrilib. Yüksək ixtisaslı həkimlərin ciddi səylərinə baxmayaraq Əlinin həyatını xilas etmək mümkün olmayıb. O 2020-ci ilin 14 noyabr tarixində həyatla vidalaşıb.

Fədakar Azərbaycan əsgəri, kəşfiyyatçı şəhid Ə.Mənəfli indi Şirvanın müqəddəs məkanı olan Şəhidlər xiyabanında uyuyur.

O, idman arenasında ucaltmaq istədiyi üçrəngli Azərbacan bayrağını öz şəhidliyi ilə bütöv bir xalqın-millətin qəlbində yüksəltdi. Əli Şuşanın işğaldan azad edildiyi günü görməsə də altı həftə yarımlıq müharibənin məhz elə 6 həftəsini düşmənlə göz-gözə, üz-üzə mübarizədə keçirtdi. Müzəffər ordumuzun döyüşçüsü Əli Əflan oğlu Mənəflinin ölməz xatirəsi qəlbimizdə əbədi yaşayır.

O 2019-cu ildə hərbi xidmətə başlayıb 19 yaşında vətən uğrunda gedən müharibədə şəhid olub. İndi Əli Mənəflinin anası Simuzər xanım atası Əflan bəy bir təsəlli ilə yaşayırlar. Çünki Əli el,Vətən yolunda həlak olub.

Torpağımızın işğaldan azad edilməsi uğrunda şəhidlik məqamına yetişənlər ölməzdirlər! Onlar unudulmazdırlar, yaddaşlardan silinməzdirlər. Şəhidlər xalqın, elini tarixin yaddaşında yaşayanlardırlar.

**Həmidə FAZİLQIZI,**
**Azərbaycan Jurnalistlər**
**Birliyinin üzvü**

**Qondarma "erməni soyqırımı" ilə bağlı ABŞ Prezidenti C.Baydenin verdiyi əsassız, qərəzli bəyanat siyasi mövqeyindən aslı olmayaraq bütünlükdə Azərbaycan cəmiyyətində böyük təəssüf və ikrah hissi ilə qarşılanmışdır. Türkiyəyə qarşı ağır iftira, növbəti siyasi təzyiq və təhdid vasitəsi olan bu bəyanat ciddi şəkildə qınaq obyektinə çevrilməli və rədd edilməlidır. Uzun illərdir ki, erməni diasporunun və lobbisinin Türkiyəyə qarşı siyasi spekulyasiya aləti kimi istifadə etməyə çalışdığı qondarma "erməni soyqırımı" ifadəsinin ABŞ Prezidentinin dilindən səsləndirilməsi Baydenin seçki kampaniyasında ermənilərin maliyyə və səs dəstəyi müqabilində verdiyi sözün nəticəsi olsa da, bu ədalətsiz bəyanatın ABŞ üçün ağır siyasi, iqtisadi və hüquqi nəticələri olacağı şübhəsizdir.**

# Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi

Bu uğursuz və düşüncəsiz açıqlamanın hər hansı bir tarixi, siyasi və ya hüquqi əhəmiyyəti, qüvvəsi olmasa da, ədalətin, insan haqlarının, beynəlxaq hüququn mövcud olduğu dünya ölkələrinin, xüsusilə bütün Türk dünyasının bu provakasiya xarakterli addıma birmənalı, adekvat və sərt reaksiyası olmalıdır. ABŞ prezidenti C.Baydenin 1915–ci ildə ermənilərə qarşı "soyqırım" törədilməsi və 1.5 milyon ermənninin öldürülməsi barədə bəyanatı acı təəssüf və hiddət doğurmaya bilməz. Bundan əvvəlki prezidentlərin seçkiqabağı kampaniya dövründə söz verməlırinə baxmayaraq, realliqları, tarixi və hüquqi məsələləri öyrəndikdən sonra "soyqırımı" tanımaq fikrindən vaz keçmələri prezident Baydenin də bu cür davranacağına müəyyən ümidlər yaratmışdı. Lakin ümidlərimiz doğrulmadı və dünyanın ən böyük dövlətinin başçısı tarixi həqiqətləri və hüququ tapdalayaraq belə bir bəyanatla çıxış etdi. 1914-cü il siyahıyaalmasına görə Osmanlıda cəmi 1.3 milyon erməni olduğu halda 1.5 milyon ermənninin "soyqırım"a məruz qaldığını iddia edən C.Bayden bu addımın hansı nəticələrə gətirib çıxaracağını düşünmək istəmədi, yaxud, düşünə bilmədi.

Bu bəyanat ABŞ-ın əlində bayraq etdiyi demokratiya, insan hüquqları və öz milli maraqlarına da uyğun deyildir. Türkiyə NATO üzvü kimi ABŞ-ın strateji müttəfiqidir. Son 20 il ərzində Türkiyənin nail olduğu iqtisadi, hərbi, texniki və texnoloji inkişaf onu, Azərbaycanla birlikdə nəinki regionun, eləcə də qlobal güc mərkəzlərindən birinə çevirmişdir. Bu faktorun ABŞ-Rusiya münasibətlərinin getdikcə gərginləşdiyi, hətta soyuq müharibə səviyyəsinə çatdığı bir şəraitdə nəzərə alınmaması ya Baydenin bu coğrafiyada baş verən prosesləri, xüsusilə 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni geosiyasi reallıqları düzgün qiymətləndirə bilməməsidir, ya da onun erməni lobbisinin əlində alətə çevrilməsidir. Qondarma "soyqırım", "qətliam" ifadələrindən əlavə ABŞ Prezidentinin 1915-ci il hadisələrini "tanıdığı" bəyanatda İstanbul əvəzinə "Konstantinopol" ifadəsindən istifadə etməsi isə siyasi skandal olmaqla yanaşı Türkiyəyə qarşı nifrət və dözümsüzlüyün açıq şəkildə ifadəsidir. Bayden 40 ildən sonra "erməni soyqırımı" ifadəsini işlədən ilk ABŞ prezidentidir.

Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi bütün dövrlərdə müxtəlif təxribatlara əl atıb. Onilliklər ərzində erməni təbliğat maşını və onun havadarları Osmanlı imperiyasında ermənilərə qarşı soyqırımı törədildiyini sübut etməyə və bütün dünyanı buna inandırmağa cəhd göstərib. Erməni lobbisinin tarixi saxtalaşdırmaq və təhrif etmək cəhdinin növbəti təzahürü olan C.Baydenin "bəyanatı" heç bir şəkildə Türkiyənin qlobal güc roluna və regiondakı mövqelərinə təsir edə bilməz. Bu bəyanat tarixi səhv adlandıran möhtərəm Prezidentimiz İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirib. Bu ABŞ administrasiyasının bu provakasiyon addımına ən gözəl siyasi qiymətdir. Danılmaz faktdır ki, Türkiyə dünyanın qlobal gücüdür və Azərbaycan bütün siyasi, iqtisadi, hərbi gücü ilə hər zaman qardaş Türkiyənin yanındadır.

C.Baydenin əsassız, biabırçı bəyanatından dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığının olması bir daha göstərdi ki, tarixin sınağından çıxmış Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır və bu iki qardaş dövlət ən çətin, taleyüklü məqamlarda hər zaman bir-birinin yanındadır. Əsrlər boyunca ən çətin sınaq günlərində Azərbaycan Türkiyənin, Türkiyə isə Azərbaycanın yanında olub və olacaqdır. Şübhəsiz ki, bu məsələ də istisna deyil. Allah millətimizi qorusun, dostluğumuzu və qardaşlığımızı əbədi etsin!

**Fəxrəddin Rəhimov,**
**Şirvan Şəhər Ağsaqqallar Şurasının sədri**

# ONUN QİSMƏTİ BELƏ İMİŞ

## VƏ YA VÜQARI DA ALLAH SAXLADI



**Vüqar Ömərov Naxçıvan Muxtar Respublikasında hərbi xidmət keçmiş, ordudan tərxis olunmuşdur.**

Ötən ilin sentyabrında Ermənistanın baş naziri Nikol Paşinyanın qadını Xankəndidə hərbi libas geyinib avtomat silahı Azərbaycana tuşlamaqla erməni «haxçılarını» türklərə qarşı savaşa səslədiyi məlum oldu. Bu azmış kimi «Qarabağ Ermənistandır. Nöqtə»-deyən Baş nazir sülh danışıqlarına olan otuz illik ümidləri puç etdi.

Haylar bu dəfə də hücuma keçib əlavə, halal torpaqlarımızı qəsb etmək məqsədi ilə müharibəyə başladılar.

Vüqar söhbət zamanı dedi:

-Xeyli vaxt idi ki, biz gənclər hadisələrin gedişini diqqətlə izləyir, Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyirdik. 27 sentyabrda ordumuz əks-hücuma keçəndə bir dəstə könüllü Səfərbərlik , hərbi Xidmətə Çağırış şəhər şöbəsinə gedib döyüşə yollanmaq arzumuzu bildirdik. Bizi həssaslıqla dinlədilər, sənədlərimizi diqqətlə yoxlayıb müəyyən yoxlamadan sonra yoldaşlarımın çoxu yola salındı. Mənə, gözlə dedilər. Təkrar müraciət etdim. Xahişim qəbul olunmadı. Amma fikrim qəti idi. Döyüşə gedəcəkdim.

Evə gəlib dedim ki, könüllü kimi məni də çağırıblar. Anamın, ailəmin qəfil xəbəri narahatlıqla qarşıladıqlarını görüb:

-Ay ana, Vətən köməyə çağırır. Axı, mən tək sizin övladınız deyiləm...

O, ailəsindən ayrılanda son dəfə körpələrinə göz gəzdirdi...

Vüqar könüllülərə qoşulub Goranboy rayonuna yollandı. Orada müəyyən təlimlərdən sonra, Füzuli rayonunda gedən döyüşlərə qatıldı.

Vüqar və əsgər yoldaşları Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə ciddi maneələrlə qarşılaşdılar. Çünki erməni faşistləri əsas qüvvələrinin böyük hissəsini bu ərazidə toplamış, keçilməz sədlər yaratmışdılar. Amma hər birimizin qələbəyə ümidi böyük idi. Düşmənə böyük nifrət hissi olan əsgərlərimiz sanki savaş üçün doğulmuşdular. Sanki, qeybdən bir səs gəlirdi onlara:

Yağışda irəli, qarda irəli!

Qoyma Vətənini darda, irəli!

Komandirin əmriylə atıcı taborumuz Füzulidə döyüş tapşırığını yerinə yetirib Cəbrayıla üz tutdu. Burada da igidliklə vuruşduq. Şəhidlərimiz də oldu, yaralananlarımız da. Amma yalnız irəli gedirdik. Cəbrayılı azad edib, Zəngilana istiqamət götürdük. Zəngilan da yağıdan təmizləndi. Bütün rayonlarda qələbəmizin qazanılmasında ağır artilleriya və “dronlar” əsas rol oynadı. Təbii ki, burada igid əsgər və zabitlərimizin rolunu danmaq olmaz.

Qubadlı rayonunda qanlı döyüşlər oldu. Ümumiyyətlə Qarabağ ərazisində relyefin dağlı-dərəli olması, ərazilərə tez-tez qatı duman çökməsi savaşı bir qədər də çətinləşdirirdi.

Vüqar deyir: - Amma igid oğullarımız heç nədən çəkinmirdilər. Qubadlıda yaxın cəbhə dostlarımdan Raufla Hüseyn ağır yaralandı. Elə bildim onlara dəyən güllə mənə dəydi. Bizimlə birlikdə ailənin tək övladı olanlar da döyüşürdülər. Onlara deyirdim ki, özünüzü qoruyun. Mənim arxada qardaşım var. Sizlər isə hansısa bir ocağın ümid çırağısınız. Amma kimə deyirsən. Vətən uğrunda döyüşdə bu gənclər ən qaynar nöqtələrdə görürdük.

Bir məqamı da xatırladım. Qubadlıda mühasirəyə düşmüşdük, son güllənizə qədər vuruşub həlak olmağı qət etmişdik. Söz vermişdik ki, düşmənə əsir düşməyəcəyik. Amma necə deyərlər, analarımız namaz üstə imişlər. Son anda igid döyüşçülərimiz harayımıza yetişdilər. Bizi mühasirədən xilas etdilər. Savaşda çox ağır və çətin günlərimiz olub. Bəzi hallarda taboru hissələrə bölüb ayrıayrı istiqamətlərə göndərirdilər. Ya nəsib, bir də dostlarla görüşmək xoşbəxtliyini görəcəyikmi? - deyirdik.

Düşünürəm ki, həyatda ən müqəddəs, etibarlı yoldaşlıq və dostluq müharibə yoldaşlığı və dostluğudur. Bir dadım tikəni, bir udum suyu aramızda bölürdük. Əsgərlərimizin hər biri cəsur aslanı xatırladırdı. Elə ürəklə hücuma keçirdik ki, düşmən silah-sursatını, döyüş texnikasını qoyub qaçırdı. Qaçırdı ona görə ki, o özgə torpağını işğal məqsədilə vuruşurdu. Bizim geriyə bir addım belə atmağa ixtiyarımız yox idi. Biz öz torpaqlarımızın azadlığı uğrunda döyüşürdük. Vətən eşqi əsgərlərimizi ruhlandırırdı.

**Müəllifdən sözə qüvvət:** 2020-ci il.Oktyabr ayının sonları bir səhər çağı qonşum- Vüqarın anası ilə salamlaşdıq. Gördüm kefi yoxdur. Soruşdum ki, niyə qəmlisiniz?

Yaşlı gözünü silib dedi:

-Gecəni səhərəcən yatmamışam. Möhkəm yağış yağırdı, dedim Vüqar və əsgər yoldaşları yağışın altında qalıb. Elə bilirdim yağış bütün əsgər analarının evinə yağır. Bəli, həmin gecəni Vüqarın anası yox, balaları döyüşdə olan bütün anaları narahat yatıblar. Həmin yağış onların da yuxularına yağıb.

Vüqar sözünə davam etdi:

-Son döyüşümüz Laçının Güləbit kəndində getdi.Burada sanki göydən od-alov yağırdı. Biz əsgərləri döyüşə ruhlandıran Vətən, torpaq sevgisi, bizimlə bərabər hücuma atılan, öndə gedən ölümdən, gülləmdən qorxmayan komandirlərimiz idi. Polkovnik-leytenant Ceyhun Əzizov, leytenant Nicat Şükürov, neçə-neçə zabitlərimiz belə igidlərdən idilər. Amansız döyüşdə az itkilərlə qələbə çalıb, Güləbit kəndini işğaldan azad etdik.

Düşünürəm ki, qəhrəmanı zaman və mühit yetişdirir. Adi hallarda kimin kim olduğunu bilmək çətindir. Bütün zamanlarda havadarlarına arxalanan, özünü bizdən güclü hesab edən düşmən yanıldığının əyani şahidi oldu.

Sual:

-44 günlük müharibə boyu döyüşmüsən.Heç ərzaqdan, sudan korluq çəkdiyiniz vaxtınız olubmu?

-Bizə yaxşı baxırdılar. Lakin şiddətli döyüşlərdə ön cəbhəyə ərzaq çatdırmaq çətinləşirdi. Düşmən yemək daşıyan maşınları, səhra mətbəxlərini hədəfə alırdı... Amma bu bizləri o qədər də narahat etmirdi. Maraqlıdır. Evdə yeməyin vaxtı bir az gecikəndə bəzən əsəbləşirdik də... Müharibədə yemək-içmək yada düşmür. Yuxu da belədir. Bir quş çimri bir gün savaşmaq üçün bəs edirdi.

Vüqargilin atıcı dəstəsini Şuşaya buraxmadılar. Şuşanın taleyini xüsusi təyinatlılar həll etdilər. Vüqar deyir ki, eşitdik Şuşada igid əsgərlərimiz düşmənə sözün həqiq mənasında «dərs» verib. Əsgər və zabitlərimizin «dəmir yumruğu» onların belini qırıb. Şuşanın azad olunması bizim üçün də əsl bayram oldu.

Sual:

Müharibə dövründə heç ailən yadına düşürdümü?

- Ailə haqqında düşünməyə vaxt az idi. Düşüncəmdə ancaq irəli, ancaq qələbə şüarı «məskən» salmışdı. Amma ananı, ailəni də unutmaq olmur. Ananın, Vətənin rahatlığı üçün torpağı düşməndən qorumaq lazımdır...

Uzun illərdir gözlənilən qələbə xəbərini eşitdik. 44 günlük müharibə başa çatdı. Vüqar dörd medalla- «Zənglan uğrunda», «Qubadlı uğrunda», «Laçın uğrunda» və «Vətən uğrunda» medalları ilə təltif olundu.

Vüqar deyir ki, mənim qismətimə sağ qalmaq yazılıbmış. Məni böyük yaradan Allah saxladı.

O, ordudan tərxis olunub elinə-obasına, ailəsinə döndü.

Maraqlıdır. Bir saatdan artıq Vüqarla söhbətləşdik. Bir dəfə də demədi ki, vurdum, öldürdüm,düşmənə qan uddurdum. O, ancaq əsgər və zabit yoldaşlarının igidliklərindən söhbət açdı.

Haşiyə:

İndi Vüqarın ailəsi 20 Yanvar 4, mənzil 35-də kirayəşin kimi yaşayır. Bu fədakar, vətənpərvər əl tutmaq, ailəsini mənzillə təmin etmək Vüqarın çəkdiyi əzablara, yuxusuz və qorxulu gecələrinə ən dəyərli əvəz olardı.

Dövlətimiz şəhid ailələrinə və qazilərimizə mənzillər verir. Qəhrəmanımız, Vətən fəadisi Vüqarın diqqətdən kənarda qalmayıb mənzillə təmin olunması hər birimizin ürəyindən olar.

**Yaqub SALMAN**













## Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2021-ci ilin ikinci rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

### CƏDVƏL

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1. | Şirvan şəhəri, 30-cu Nümunəvi məhəllə | 02.04.2021 | Prokuror Fuad Məmmədov |
| 2. | Şirvan şəhər mərkəzi xəstəxanası | 29.04.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 3. | Şirvan şəhər Təhsil şöbəsi | 03.05.2021 | Prokuror Fuad Məmmədov |
| 4. | Şirvan Mənzil Təsərrüfatı İdarəsi | 28.05.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 5. | Şirvan şəhəri, 23-cü Nümunəvi məhəllə | 04.06.2021 | Prokuror Fuad Məmmədov |
| 6. | Şirvan şəhəri, 5-ci Nümunəvi məhəllə. | 30.06.2021 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |

**Fuad Məmmədov,**
**Şirvan şəhər prokuroru baş ədliyyə müşaviri**

9 MAY-ALMAN FAŞİZMİ ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜDÜR

# VETERANLAR ŞURASININ SƏDRİ İLƏ MÜSAHİBƏ

**Xalqımız 9 May- alman faşizmi üzərində qələbənin 76-cı ildönümünü təntənə və qürür hissi ilə qeyd edir.**



9 May Qələbə Günü ərəfəsində Respublika Müharibə Əmək və Silahlı Qüvvələri Veteranları Şirvan şəhər təşkilatının sədri Vaqif Qayıbovla görüşüb söhbətləşdik.

Vaqif müəllim söhbət zamanı dedi ki, 1939-1945-ci illəri əhatə edən İkinci Dünya müharibəsi tarixə ən böyük hərbi-siyasi münaqişə və ən dağıdıcı müharibə kimi daxil olmuşdur. Azərbaycan bu müharibədə qələbəyə sanballı töhfə verib. Bu müharibədə 600 min nəfərdən çox əsgər və zabitimiz iştirak etmişdir. Onlardan yarıdan çoxu geri dönməmişdir. Bu da bir həqiqətdir ki, cəbhə üçün yanacağın əsas hissəsi Azərbaycandan göndərilmişdir. Sovet Ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Azərbaycanlılardan ibarət 416-cı, 401, 223-cü, 77-ci diviziyalar şərəfli döyüş yolu keçmişdir. 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmişdir. Diviziyanın əsgərləri Berlində Qələbə bayrağını ilk qaldıranlar sırasında olub.

1941-1945-ci illər müharibəsində indiki Şirvan şəhərindən (keçmiş Əli Bayramlı rayonu) 8 min nəfərdən çox insan orduya səfərbər olmuşdur. Onlar mərdliklə vuruşmuş, əsgəri borclarını şərəflə yerinə yetirmişlər. Sovet İttifaqı Qəhrəmanı kimi fəxri ada layiq görülmüş 123 nəfər Azərbaycan vətəndaşı sırasında həmşəhərlilərimiz Şirin Ağabala oğlu Şükürov və Leonov Viktor Petroviç də vardır. Yüzlərlə sakinimiz cəbhədən orden və medallarla qayıtmışlar. Şirin Şükürovun adı şəhərimizdə əbədiləşdirilib. Kürsahili parkda büstü qoyulub. Vaxtilə yaşadığı küçəyə qəhrəmanımızın adı verilib.

Ulu öndər Heydər Əliyev 9 Mayda qələbənin qazanılmasında xidmətləri olanları həmişə diqqət mərkəzində saxlamışdır. Bu yolu ölkə Prezidenti İlham Əliyev də uğurla davam etdirir Veteranlara xüsusi qayğı və diqqət göstərir. Hər il olduğu kimi, bu il də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına birdəfəlik maddi yardım göstərilib.

Şirvan şəhər İcra Hakimiyyəti tərəfindən də bu qəbildən olan şəxslərə həssaslıqla yanaşılır, onlara lazımi köməklik göstərilir.Xalqımız bu il 9 Mayı daha yüksək əhval- ruhiyyə ilə qeyd edir. Ötən ilin sentyabrında Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücuma keçərək işğal altında olan torpaqlarımızı azad etdi. Dədə-baba yurdlarımız 30 ilə yaxın davam edən erməni işğalından azad olundu.

44 günlük Vətən müharibəsində şəhidlərimiz də oldu. Allah onlara rəhmət eləsin. Qazilərimizə sağlamlıq arzulayırıq.

Hazırda azad olunmuş torpaqlarda abadlıq- quruculuq işləri sürətlə aparılır. İnanırıq ki, yaxın vaxtlarda bütün azad olunmuş rayon, şəhər və kəndlərimizdə məskunlaşma başlayacaq.

Biz bütün bunlara görə şəhidləriimzə, qazilərimizə rəşadətli ordumuza igid, cəsur əsgər və zabitlərə, müzəffər Ali Baş Komandanımız İlham Əliyevə borcluyuq.

Qələbə bayramınız mübarək!

**Müsahibəni**
**Musaxan HEYDƏRLİ apardı**

# "NUR DOLU ÖMÜR"

## Rəsm sərgisi 3 gün davam etdi



**Şirvan şəhər Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə "Nur dolu ömür" adlı rəsm sərgisinin açılış mərasimi keçirilib.**

Şirvan Şəhər İcra Hakimiyyəti, Şirvan şəhər Heydər Əliyev Mərkəzi və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə keçirilən sərgidə şəhər ümumtəhsil məktəblərinin şagirdlərinin rəsmləri nümayiş olunub. Pandemiya qaydalarına əməl edilməklə təşkil olunan sərgidə nümayiş olunan rəsm əsərləri əsl Azərbaycan xanımı, gözəl ana, qayğıkeş həyat yoldaşı, fitri istedada malik həkim, istedadlı alim Zərifə xanım Əliyevanın mənalı ömür yoluna həsr edilib.

Sərgini giriş sözü ilə Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşı Aynur Fərzəliyeva açaraq, akademik, oftalmologiya sahəsində görkəmli alim, ictimai xadim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi Zərifə Əliyevanın Azərbaycan üçün gördüyü misilsiz xidmətlərdən, oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıb. Qeyd edib ki, geniş dünyagörüşü, yüksək ziyalılığı, tədqiqatçılıq bacarığı ilə hamının rəğbətini qazanmış Zərifə xanım ulu Tanrının xalqımıza bəxş etdiyi heyrətamiz dərəcədə pak və nadir insan idi. İnsanların gözlərinə nur bəxş etməsi onun qəlbindəki humanizm duyğusunun və həssaslığının peşəsində təzahürü idi.

Sonra Sabirabad Regional Mədəniyyət İdarəsinin rəis müavini Əziz Abbasov, şəhər Təhsil şöbəsinin müdiri Rövşən Allahverdiyev, Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev sərgi barədə təəssüratlarını bölüşərək, Azərbaycan dövlətçilik tarixinin böyük şəxsiyyətləri Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, cənab Prezident İlham Əliyevin anası Zərifə xanım Əliyevanın keçdiyi həyat yolunun gənclərə örnək olduğunu, illər keçsə də xatirəsinin daim dərin ehtiramla anılacağını diqqətə çatdırıblar.

Sərgidə nümayiş olunan rəsm əsərlərinin müəllifləri-şəhər ümumtəhsil məktəblərinin şagirdləri Ayla Mahmudova 1-ci yerə, Nəzrin Poladova 2-ci yerə, Suma Vahidova və Mirsəkinə Yusifova 3-cü yerlərə layiq görülüblər və fəxri fərmanlarla təltif ediliblər.

Qeyd edək ki, Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr edilmiş sərgi 3 gün davam etmişdir.

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ AKSİYA



**Şirvan QAC müqəddəs Ramazan ayı münasibəti ilə sünnət aksiyasına start verdi. Aksiyada Bakı şəhərindən dəvət olunmuş həkimlər iştirak edir. Qeyd edək ki, aksiya şəhid ailələri, müharibə iştirakçıları və az təminatlı ailələrin övladlarına şamil olunmuşdur.**

İlk aksiyada həkim Vüqar Məhəmmədovun dəstəyi ilə 20 uşaq müsəlman edilmişdir.

Növbəti aksiyada isə 22 uşaq sünnət olunmuşdur.

Xeyriyyə aksiyasında iştirak edən həkim Hüseyn Kəngərliyə, 3 saylı Bakı şəhər xəstəxanasının həkimi Mehdi Mehdizadəyə, klinikanın əməkdaşları Şəms Eyvazovaya, Şahbəyim Salmanovaya təmənnasız xidmətlərinə görə dərin minnətdarlığımızı bildiririk.

Ramazan ayı boyu xeyriyyə aksiyamız davam edəcək.

**Gülbikə Kərimova,**
**Qızıl Aypara Cəmiyyəti Şirvan şəhər şöbəsinin təlimatçısı**

## ETIBARSIZDIR

Şirvan şəhər sakini Zamanova Şuşa Zülfüqar qızına məxsus Əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

# Pandemiya dövründə şagirdlərin psixososial tərbiyəsi



**Nərmin BƏDİROVA,**
**Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəb-liseyin psixoloqu**

**Pandemiya dövründə mövcud vəziyyətlə əlaqədar uşaqlarda fərqli psixologiya formalaşa bilər. Əvvəlki dövrə əsasən hazırda uşaqların, insanların sağlamlığı üçün bəzi şeylər fərqli şəkil almışdır. Təbii ki, bunların uşaqlar üçün bir qədər psixoloji təsirləri ola bilər. Bütün bunlara baxmayaraq, uşaqlara nəzər yetirəndə görərik ki, onların daxili aləmləri o qədər sehrlidir ki, imkansız düşündüyümüz hər şeyi belə, imkanlı olmasına çalışıb mümkün edə bilərlər. Hər uşağın psixologiyası fərqlidir. Hər uşağın daxili aləmində maraqlı psixoloji xüsusiyyətlər olur. Bəzi uşaqlar öz daxili aləmini, yaradıcılıq xüsusiyyətlərini kəşf edə bilir, amma bəzi uşaqlar isə özündə olan fərqliliyi büruzə verməkdən çəkinir, yaxud bunun yaxşı bir fikir olmadığını düşünür, qorxurlar.**

Uşaqların psixososial tərbiyəsinin, emosional inkişafının formalaşması üçün bir çox psixoloji metodikalar vardır:

1. Özünüzü dəyərləndirin: Hər bir uşağın daxilinə özünə aid müsbət dəyərləri olur, hər bir uşağın dəyərli, fərqli psixoloji xüsusiyyətləri vardır. Dəyərləriniz sizi psixoloji olaraq pozitiv saxlamağa kömək edə bilər. Tez-tez özünüzü müsbət cəhətlərinizə görə dəyərləndirin. Çünki onlar yalnız sizə məxsusdur. Bunu unutmayın.

Pandemiya dövründə uşaqların çoxu özlərinə aid xüsusi bacarığı, istedadı kəşf etdilər. Özünüzü daha dərindən tanımağınız üçün öz gizli dəyərlərinizi axtarın, onlara nəzər yetirin.

2. Özünüzə tez-tez müsbət fikirlər ötürün. Bunu güzgü qarşısında, yaxud sakit məkanda edə bilərsiz. Gözlərinizi yumun. Sizə müsbət təsir edəcək musiqini də dinləyə bilərsiz. Özünüzü aid olmaq istədiyiniz bir məkanda təsvir edin, rahat və azad hiss etməyə çalışın. Bu rahatlığı bütün beyniniz və bədəninizdə hiss edin. Sonra özünüzə bu sözləri deyin: Mən azadam, mən rahatam, mən özümə inanıram, mən istəklərimin həyata keçəcəyinə inanıram, mən həyatda uğurlar qazanacağıma inanıram, həyat çox gözəldir, həyatın gözəlliyi mənim əlimdədir. Bu gözəlliyə sadəcə olaraq inanmaq xoşbəxt olmağa işarədir.

3. İnanmaq. İnsanı həyatda güclü edən tək şey inanmaqdır. Özünə inanmaq isə səni hər zaman güclü edəcəkdir. Bəzən mənfi hadisələrlə qarşılaşırıq. Bəzən isə imkansız, mümkün ola bilməyən şeylərə inanmaqdan qaçırıq. Amma ən son bizə güc verən inam olur, ümid olur. Çünki inanmağımız mümkünsüzü mümkün edə bilər. Bir şeyi bacaracağına bütün hisslərinlə inandığında ağlın, düşüncə gücün onu bacarmaq üçün sənə həll yolları tapmağa yardım edəcək və işin uğurlu olacaq.

4. Başqalarının sizə qarşı olan təzyiqlərinə, təsirlərinə inanmayın. Cəmiyyətdə belə hallara çox tez-tez rast gəlmək olar. Amma bunlara qarşı insan hər zaman hazır olmalıdır. Əgər sinif mühitində, tələbəlik həyatında digər sosial mühitlərdə belə hallara rast gəlirsinizsə, bunlara qarşı özünüzü sakit hiss etməyə çalışın. Özünüzə bu sözləri deyin: Mən rahatam, mən sakitəm, mən güclü olduğum üçün bu sözlərə fikir verməməliyəm. Sakit olmağımla qarşı tərəfə güclü tərəflərimi göstərə bilərəm. Bu sözləri özünüzə dedikdən sonra düzgün mövqedə qarşı tərəflə düzgün münasibət yarada biləcəksiniz və nəticədə siz psixoloji olaraq aqressiya və stress halında özünüzü hiss etməyəcəksiniz. Əgər qarşı tərəf sizi çox və ciddi şəkildə narahat edirsə, o zaman problemi özünüzdə saxlamayın. Sizin ən çox inandığınız və güvəndiyiniz insanlarla paylaşıb yardım ala bilməyiniz sizi psixoloji cəhətdən rahat və özgüvəndə hiss etdirəcək.

5. Həyat paylaşmaqla gözəldir. Pandemiya dövründə insanlar bəzi sosial mühitlərdə sağlamlıqlarını qorumaq üçün sosial mühitlərdən, ünsiyyətdən uzaq oldular. Amma digər sosial mühitlərdən fərqli olaraq ailədə də gözəl zaman keçirməyin ən gözəl bir mühit olduğunu kəşf etdilər. Ev mühitində ailənizlə maraqlı və əyləncəli işlər etmək mümkündür. Ailənizlə səmimi ünsiyyət zamanı uşaqlıq dövrlərinizdən, gələcəkdə qurmaq istədiyiniz həyatdan, planlarınızdan danışmaq evdə maraqlı əhvali-ruhiyyənin yaranmasına kömək olacaq. Ailənizin sizi izləməsinə, dinləməsinə şərait yaradın. Bunun üçün onların sizə baxması, izləməsi kifayətdir. Siz musiqi alətlərində onların qarşısında musiqi ifa edərkən, şeir, maraqlı bir hekayə danışarkən bu, ailənizin sizin bacarığınıza olan inamı formalaşdıracaq, nəticədə sizin və ailənizin xoşbəxt hiss etməsinə şərait yaranacaq.

**Xoşbəxt olmaq üçün psixoloji texnika**

Xoşbəxtlik bəzən ən gözəl bir dostla qarşılaşdığımız zaman, bəzən həyatımızın hekayəsini əks etdirən bir kitabda, bəzən qəlbimizə məxsus bir musiqidə, bəzən isə möcüzələrlə qarşılaşdığımız zamanda ola bilər. Xoşbəxtlik quşunun qanadında bizə şanslar gətirəcəyi günü gözləməliyik.

Kainatın gözəllikləri ilə dolu bir dünya olduğunu unutma. Göy üzündə uçuşan quşların, günəşin, ayın, ulduzların sənin üçün var olduğunu unutma.

Stresə qalib gəlmək üçün texnikalar vardır:

Nəfəs texnikaları, autogen məşq, art terapiya və s.

Nəfəs texnikası zamanı stresdə olduğunuz, gərginlik yaşadığınız zaman istifadə edə bilərsiz. Məsələn, stress yaşadığımız zaman bədəndə mənfi hisslər olur. Onları bədəndən psixoloji olaraq azad etmək üçün bədənimizdə olan bütün mənfi auranı nəfəsimizi dərindən bir neçə dəfə almaqla yox edə bilərik. Bunu ruhən inanaraq gülümsəyərək etməyimiz bizdə müsbət, xoş auaralı hisslərin yaranmasına və yeni nəfəsin yaranmasına imkan yaradacaq. Bu zaman bədənimizdə, zehnimizdə köklənən mənfi ruh pozitiv enerji ilə dolacaq. Nəfəs texnikaları meditasiya, autogen məşq zamanı da istifadə olunur. Nəfəs texnikalarını təmiz havada, istədiyiniz rahat məkanda edə bilərsiz.

Autogen məşq zamanı siz özünüzə müsbət təsir edən sözlərinizi birbaşa özünüzə ötürə bilərsiz. Məşq zamanı seçdiyiniz məkan çox rahat olmalıdır. Bu metodika vasitəsi ilə bədəninizdə və zehninizdə olan yorğunluq, mənfi enerjilər, gərginlik, stresdən azad olacaqsız. Məşq zamanı bədəninizin və zehninizin rahat ola biləcəyi şəkildə uzanın, ən çox sevdiyiniz melodiyadan da istifadə edə bilərsiz. Hər şəraiti qurduqdan sonra məşqi edin və bu sözləri özünüzə deyin: "Tənəffüsüm sərbəstdir", "Ürəyim ardıcıl və normal döyünür", "Beyin damarlarımda gərginlik yoxdur", "Başımda və bütün bədənimdə tam rahatlıq, aydınlıq və yüngüllük hiss edirəm" və "Mən istirahət edirəm". Autogen məşq zamanı bədəninizdə ağırlıq hissi (qollarda və ayaqlarda) istilik hissini (qollarda və əllərdə), qarın nahiyəsində xoşagələn bir istilik, alında isə sərinlik hissini, ürəyin döyüntüsünün sakitləşməsi və sakitliyin təmin olunmasını hiss edəcəksiz və psixoloji baxımdan gərginliyiniz azalacaq, özünüzü rahat hiss edəcəksiniz.

Digər texnikalardan rəsm terapiyasını da göstərmək olar. Rəsm terapiyası hər uşağın sevdiyi bir işdir. Rəsm terapiyası insanların, uşaqların hiss etdiklərini, arzu etdiklərini, yaradıcılıq təxəyyüllərində olan ideyaları ifadə etməkdə, özünün daxili aləmində olan ideya və mənəvi dünyanın kəşf olunmasında böyük rol oynayır. Ümumiyyətlə rəsm, musiqi, teatr, heykəltəraşlıq və hekayələr yoluyla həyata keçirilən bu terapiya növləri sizə, özünüzə və ətrafdakılara fərqli gözlərlə baxmaq və anlamaqda köməkçi ola bilər.

# TƏDBİR MARAQLA QARŞILANDI

**Ölkə Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin «Nizami Gəncəvi ili» elan edilməsi haqqında sərəncamına əsasən filialımızda tədbir keçirdik.**

Pandemiya tədbirləri nəzərə alınmaqla keçirilən tədbirdə 1 nömrəli məktəb-liseyin müəllim və şagirdləri xüsusi ilə fərqlənmişdir.

Filialın baş kitabxanaçısı Solmaz Qasımova giriş sözü ilə çıxış edərək dünyaşöhrətli Nizami Gəncəvi əsərləri barədə məlumat verdi.

Şagirdlər dahi Nizaminin həyat və yaradıcılıq fəaliyyətindən söz açdılar.

Tədbirdə digər çıxış edənlər N.Gəncəvinin 880 illik yubileyində böyük şairimizin bədii irsinin daha dərindən öyrənilməsinin vacibliyini xüsusi vurğuladılar.

Kitabxananın Multi-media resursları üzrə mütəxəssisi Şəhla Nəsirullayeva tədbir iştirakçılarına fəal iştiraklarına görə təşəkkür etdi.

**Ş.Abdullayeva,**
**mərkəzləşmiş kitabxanalar sistemi 1 saylı filialının müdiri**

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650